# Müasir qazax yazılı ədəbiyyatının banisi Abay Kunanbayev və dünya ədəbiyyatı

**Təranə Həşimova**
*AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, f.ü.f.d.*



Hər bir xalq, hər bir dövlət hər zaman mədəni-mənəvi irsi, böyük ədəbi və tarixi şəxsiyyətləri ilə tanınır. Elə şəxsiyyətlər, elə sənət nümunələri vardır ki, onlar təkcə bir xalqın deyil, bəşəriyyətin mədəni irsinə çevrilmişlər. XIX əsrdə qazax xalqının yazılı ədəbiyyatının yaranması üç böyük ədəbi simanın adı ilə bağlıdır. "Çokan Vəlixanov (1838-1865), İbray Altınsar (1841-1889) və Abay Kunanbayev (1845-1904)" (5). Qazax yazılı ədəbiyyatının yaranması və inkişafında böyük xidmətləri olan bu ədəbi şəxsiyyətlərdən Vəlixanov publisistik və etnoqrafik əsərlər qələmə almaqla yanaşı, qırğız xalqının "Manas" dastanını toplamış və dastan haqqında elmi mülahizələr yürütmüşdür. İ.Altınsar isə qələmini həm nəsr, həm də nəzm nümunələri, eyni zamanda publisistik yazılar yazmaqla sınamışdır. Qazax ədəbiyyatının dünyaya inteqrasiyasında yaradıcılığı mühüm əhəmiyyət kəsb edən, qazax realist ədəbiyyatının ən tanınmış siması Abay Kunanbayevdir. Müasir qazax yazılı ədəbiyyatının banisi, filosof, böyük ictimai xadim və maarifçi olan Abay Kunanbayev XIX əsrdə qazax xalqının həyatında baş verən ictimai-siyasi prosesləri ustaca qələmə alan, xalqın milli ruhunu, tarixi kimliyini, mücadilə və mübarizə əzmini yaradıcılığında əks etdirən böyük mütəfəkkirdir. Qazax ictimai fikrinin və ədəbiyyatının mütərəqqi-demokratik mahiyyəti Abay Kunanbayevin adı ilə bağlıdır. Abay bir şair kimi formalaşmış, xalqın həyat və düşüncə tərzini, dünyagörüşünü, milli adət-ənənəsini ədəbiyyata gətirmiş, xalqın savadlanması, mədəni cəhətdən inkişaf etmiş xalqlar sırasına daxil olması üçün maarifçilik ideyalarını əsərlərində təbliğ etmişdir.

O, 10 avqust 1845-c ildə Tobıkdı qəbilə başçısı ailəsində dünyaya gəlmişdir. Atası Kunanbay ciddi, həm də sərt xarakterli şəxs olmuşdur ki, bu özünü sonralar Abay Kunanbayevə münasibətində də göstərmişdir. Əsl adı İbrahim olan Kunanbayevə anası "Ulcan xatun nəvazişlə Abay (mənası "nəzakətli, mehriban" deməkdir) deyə əzizlədiyinə görə, qəbilədə hamı ona bu adla müraciət etmişdir" (5).

Böyük Nizami Gəncəvi və digər dahi mütəfəkkirlərin yaradıcılığında olduğu kimi Kunanbayev yaradıcılığı da folklorla bağlıdır. O, qazax folklorundan, qazax poeziyasından, eyni zamanda klassik Şərq poeziyasından bəhrələnərək qazax ədəbiyyatına yeniliklər gətirmişdir. Şairin dünyagörüşünün formalaşmasında Şərqin alim və şairləri qədər Qərb mütəfəkkirlərinin də rolu olmuşdur. Kunanbayev Şərqin və Qərbin ədəbi, fəlsəfi fikir tarixinin ən böyük nümayəndələrinin, o cümlədən Firdovsinin, Sədinin, öz-

bək poeziyasından Əlişir Nəvainin, Azərbaycan şeirinin ustadları Nizaminin, Füzulinin yaradıcılığı ilə yaxından tanış olmuş, onların bir çoxunun sənətindən yaradıcı şəkildə faydalanmışdır. Eyni zamanda Puşkin, Höte, Lermontov, Bayron Abay Kunanbayevin sevərək mütaliə etdiyi mütəfəkkirlərdir.

Ədalətli cəmiyyət, ictimai bərabərlik, nadanlıq və cəhalətdən uzaqlaşmaq kimi ali məqsədləri yaradıcılıq amalına çevirən Kunanbayev əsərlərinin işığında insanları elmə, biliyə sahiblənməyə, müdrik insanların həyat və fəaliyyətindən faydalanmağa səsləmişdir ki, onun bu bəşəri çağırışları bütün dövrlər üçün müasirdir, nümunədir. Qazaxıstan Prezidenti Qasım Jomərd Tokayev Abay Kunanbayev yaradıcılığında türk millətinin, qazax xalqının ruhunun əks olunmasından bəhs edərək yazır: "Onun şeirlərində və deyimlərində millətimiz, dövrümüz, həyatımız, dünyagörüşümüz, xasiyyətimiz, ruhumuz, dinimiz, mentalitetimiz, dilimiz təcəlla edərək, möcüzəli Abay dünyasını yaradıb" (8). Cənab Tokayev milli qazax mütəfəkkirinin yaradıcılığının millətin intellektual səviyyəsinin yüksəlməsində müstəsna rolundan bəhs edərkən "Abayı tanıyan adam özü-özünü tanıyar. Özü-özünü tanıyan adam ədəblə oturub-durar, elmə, biliyə üstünlük verib, hər zaman yeniləşmək istər. İntellektli millət belə yaranar" söyləyir. Bəli, türk millətinin yenilənməsi, modernləşməsi yönündə Şərqin böyük mütəfəkkirlərinin yaradıcılığından öyrənmək, təbliğ etmək mühüm məsələlərdir ki, bu istiqamətdə Abay Kunanbayev yaradıcılığının möhtəşəmliyindən, ucalığından faydalanmaq türk xalqlarının milli özünüdərkində böyük əhəmiyyət kəsb edir. Kunanbayev əsərlərində qüdrət, dövlət və məhəbbət prinsiplərinin hansının cəmiyyətin yüksəlişinə təsir edəcəyini xarakterizə edən, bədii sözün gücü ilə hər bir yenilənmənin insanın ruh dünyasından başladığına rəğmən ağılın, məntiqin qələbə çalacağını tərənnüm edir. Qazax fəlsəfəsi tarixində ilk dəfə Abay "Tolik adam" əsərində insanın konseptual görüşünü, yetkin bir şəxsiyyətin mahiyyətini açıqlamışdır. Abayın fikrincə, üç keyfiyyət insanı yetkin bir insan halına gətirir: ağıl, ürək, iradə. Müasir cəmiyyətin vacib və aktual problemlərindən biri insan dəyərlərinin qorunmasıdır. Abay Kunanbayevin "Tolik adam" əsərini bəşəriyyəti inkişaf etdirməyə yönəlmiş kompleks bir təlim hesab edə bilərik. Akının ali məqsədi insanın mənəviyyatının kamilləməsi ilə, elmə-biliyə sahib olmaqla cəmiyyətin normal axarda inkişafına nail olmaqdır.

Əsas yaradıcılıq ideyasını maarifçilik təşkil edən mütəffəkkir şair 176 şeir, 3 poema, 45 nəsr əsərlərinin (11) müəllifidir. Qeyd edək ki, bəzi mənbələrdə şeirlərinin sayı 230 göstərilir. Abayın poetik palitrası çox genişdir, rəngarəngdir. Dərin mənalı, tənqidi yüklü şeirlərdən bədii ruhun incə inikasında sevgi gözəlliyindədir. Abayın "Sevgi dili, sözsüz söhbətdir", "Salam olsun, incəqaşlı", "Mənim ürəyimdə döyünmə daha", "Allandı, soldu" və digər sevgi şeirləri bir daha sübut edir ki,  sevgi mövzusu olmayan poeziya yoxdur. Qazax xalqının milli məninin formalaşmasında müstəsna rol oynayan Abay, həmçinin peysaj, mənzərə şeirinin banisi sayılır. Sarı Arki mənzərələri, Şimali Qazaxıstanın çöl və gölləri, təpələri qazax şairinin qələmində canlanır. Təbiətin fəsillərinin Sarı Arkida yaratdığı əsrarəngiz mənzərələri cəmi səkkiz şeirində təsvir edən şair "Bahar", "Yay", "Payız", "Qış" adlı şeirlərində insan və təbiət arasında hormoniyanın sözlə rəsmini çəkir.

Qazax mütəfəkkiri Abayın nəsr əsəri olan "Əqliyyə" əsəri onun yaradıcılığının şah əsəridir. 2005-ci ildə Abayın yeganə nəsr əsəri olan "Əqliyyələr"i Azərbaycanda Heydər Orucovun tərcüməsində nəşr olundu və "Ulduz" jurnalının səhifələrində işıq üzü gördü. Cəmiyyətdə cahillikdən doğan mənfi halların adət halına çevrilməsi Abayı narahat etdiyi üçün böyük mütəfəkkir bədii dilin köməyilə xalqına müraicət edir. Qazax xalqının tərəqqidən geri qalmasının səbəblərini ailə və məişət problemlərində, təhsildən, maariflənməkdən geri qalmaqda görür. "Abay bu əsərində xalqa müraciət edərək: "Ey

mənim xalqım, bu qədər təbii sərvətimiz olduğu halda niyə yenə belə yoxsulluq içində yaşayırıq? Xarici varlılar az da olsa dövlətin inkişafı, xalqın güzəranının yaxşılaşması üçün nə isə edirlər, bizim qazax bəyləri isə iki şeyi bacarır: çoxlu ət yeməyi və çoxlu arvad almağı" – deyir" (5). Abayın bütün əsərlərinin, yaradıcılıq konsepsiyasının əsas mahiyyətini elmin və təhsilin xalqın tərəqqisinin əsası olduğu təşkil edir. Elmsiz insanın öyünməsinin heç bir anlamı olmadığını, insanı yalnız elmin ucaltdığını əsərlərinin başlıca qayəsinə çevirən Abay Kunanbayev "Biz elmimizi satıb mal-mülk axtarmamalıyıq" deyir. "Fayda gəzmə, şərəf gəz, bir az da bilik öyrən" deyən mütəfəkkir xalqını elmə-biliyə sahiblənməyə səsləyir. Öyrənməyin, bəşəri elmlərə sahib olmağın tarixi, zamanı yoxdur. Biliklərə sahib olmaq bütün dövrlər üçün müasir olduğu kimi, Abay Kunanbayev yaradıcılığı da qazax xalqı üçün, bütün xalqlar üçün daima müasirdir, aktualdır.

Böyük maarifçi Abay Kunanbayev şeir yaradıcılığının ilk dövründə Şərqin böyük mütəfəkkirləri sırasında böyük Nizami və Füzulinin sənəti və şəxsiyyəti qarşısında hesabat verir. Onun şair kimi formalaşmasında onların sənətinin böyüklüyünü qeyd edir.

***Nizami, Sədi, Füzuli***
***Nəvai, Xəyyam, Firdovsi-***
***Böyük qələm ustaları,***
***Kömək edin mənə barı.. (6)***

Qazax şairinin klassik Azərbaycan ədəbiyyatından öyrənməsi və bəhrələnməsi çox mühüm məsələlərdir. Bu faktın özü qazax yazılı ədəbiyyatının yaranmasında və formalaşmasında Azərbaycan klassik ədəbiyyatının rolunun danılmazlığını ortaya qoyur. Təəssüf ki, qeyd olunan şeir parçasında bəzi mənbələrdə böyük Nizaminin adı qeyd olunmur. Məlumdur ki, "İsgəndərnamə" əsəri Nizami yaradıcılığının yekunu və fəlsəfi görüşlərinin məntiqi nəticəsi olan bir poemadır. Cəmiyyətin yalnız bir qanunu vardır: ümumi zəhmət, bir-birinə kömək, maddi və ruhu azadlıq, cəmiyyətin və fərdin xoşbəxtliyi. Bu ideal cəmiyyət tərənnümünə meyl və məhəbbət qazax poeziyasına Nizami ruhu, Nizami ənənələri gətirdi. Nizami poeziyasının Abay yaradıcılığına təsiri qazax şairinin yaratdığı "İsgəndər" poemasının yaranmasına səbəb oldu. "İsgəndərnamə" və "İsgəndər" poeması arasında oxşarlıqla bərabər fərqli cəhətlərində olduğu məlumdur. Süjet demək olar ki, eynidir, epizodlarda müəyyən dəyişikliklər vardır. Nizamidə süfrəyə daş-qaş qoyulduğu halda, Abayda sümük qoyulur. Bu və ya digər faktlar qazax şairinin Nizami Gəncəvini təkrarlamadan yaradıcı bəhrələnməyə üstünlük verməsini göstərir. Nizami poeziyası ilə Abay yaradıcılığı arasındakı bağlılıq görkəmli qazax ədibi, nasir və alim, Abay yaradıcılığının görkəmli tədqiqatçısı Muxtar Auezovun diqqətini cəlb etmiş, hələ ötən əsrdə, 1947-ci ilin sentyabrında Bakıda böyük Nizaminin anadan olmasının 800 illiyinə həsr edilmiş təntənəli yığıncaqda "Nizaminin əsərləri qazax xalqının mənəvi xəzinəsinə daxil olmuş, onu zənginləşdirmişdir. Bu nəhəng şair qazax folklorunu, qazax şeirini bəzəmiş, akınların, şairlərin dilinə yeni-yeni əfsanələr, mahnılar bəxş etmişdir. Nizami bütünlüklə qazax xalqının qəlbində yaşayan, xalqının milli mədəniyyətinin oyanışında mühüm rol oynayan nəhəng simadır" söyləmişdir.

Abayın yaradıcılığı Azərbaycan xalqının elmi-ədəbi mühitinə əsərlərinin tərcümələri və yaradıcılığından bəhs edən elmi araşdırmalarla da daxil olmuşdur. XX əsrin 70-ci illərindən başlayaraq, Abayın əsərləri, M.Auezovun "Abay" romanı çoxsaylı Azərbaycan mütərcimlərindən M.Rahim, S.Rüstəm, A.Almazov, E.Borçalı, S.Mustafa, A.Zeynallı, Ə.Kürçaylı, İ.Tapdıq, M.Araz, F.Sadiq, Ə.Cəmil, M.Dilbazi, N.Gəncəli, Q.Qasımzadə və başqalarının zəhməti sayəsində Azərbaycan dilinə tərcümə olunmuşdur. 2017-ci ildə fəlsəfə doktoru Fatimə Dursunovanın tərtibində Abayın nəzm və nəsr yaradıcılığı kitab halında çap olunmuşdur. Professor F.Ağayevanın Abayın Azərbaycanla olan

əlaqələrinə həsr etdiyi “Abay və Azərbaycan” monoqrafiyasını, T.Teymurovun “M.Auezovun “Abay” romanında epik vüsət və bədii detal”, “Muxtar Auezovun “Abay” romanında sənətkarlıq məsələləri” monoqrafiyalarını Abay yaradıcılığının Azərbaycanda dərindən tədqiqinin uğurları hesab edə bilərik. Professor F.Ağayevanın Abayın Azərbaycanla olan əlaqələrinə həsr etdiyi “Abay: şəxsiyyəti və ədəbi irsi” monoqrafiyasında Abay Kunanbayevin həyat və yaradıcılığına nəzər salınır, şairin yaradıcılığının Azərbaycan ədəbiyyatı ilə müqayisəsi aparılır. Müəllif kitabda Abay yaradıcılığının Azərbaycan dilinə tərcüməsi məsələsini də müfəssəl şəkildə şərh və təhlil edir. Həmçinin türk dünyasının ortaq dəyərlərini qorumaq və təbliğ etmək məqsədilə Azərbaycanda Abay Kunanbayev adına Qazax dili, tarixi və mədəniyyəti mərkəzi fəaliyyət göstərir ki, 2017-ci ildə Abay Kunanbayevin seçilmiş əsərləri mərkəz tərəfindən nəşr olunmuşdur.

Yaşadığımız dövrdə türk xalqlarının dünyaya mədəni inteqrasiyası çox mühüm məsələdir. Günümüzdə Abay Kunanbayevin irsi dünya mədəniyyəti xəzinəsinin ayrılmaz hissəsidir və onun adı dövrümüzün ən böyük şairləri ilə bərabərdir. Abayın əsərləri bir çox dillərə tərcümə olunmuşdur, müasir dünyanın bir çox ölkələrinin yazıçıları, şairləri və ədəbiyyatşünasları tərəfindən geniş tədqiq olunmuş və rəğbət qazanmışdır. Böyük mütəfəkkirin əsərləri, həyat və yaradıcılığı haqqında tədqiqatlar Rusiya, Belarus, İngiltərə, Koreya, Çin, Vyetnam, Hindistan, İrandan tutmuş Avropa və ABŞ-a qədər yayımlanmışdır. Hələ XX əsrin əvvəllərində, “1914-cü ildə Rusiyada şərqşünas-türkoloq Vladimir Qordlevskinin tərtib etdiyi “Şərq toplusu”na Abay Kunanbayevin əsərləri daxil edilmişdir” (9).

Abayın yaradıcılığı Avropada, xüsusilə, Amerikada da tanınmışdır. Qazax milli ədəbiyyatının təbliği yönündə M.Auezov adına Ədəbiyyat və İncəsənət İnstitutunun Birləşmiş Ştatların Kolumbiya Universiteti ilə elmi-bədii əməkdaşlığı yönündə “Qazax və Amerika adlı” müasir qazax poeziyasının və nəsrinin seçilmiş nümunələrindən ibarət «The Stories of the Great Steppe» və «Summer Evening, Prairie Night, Land of Golden Wheat» (“Yay axşamı, Preirdəki gecə, qızıl buğda diyarı, qazax ədəbiyyatı dünyası”) (13) adlı antologiya nəşr olunmuşdur ki, antologiyanın böyük bir qismini Abay Kunanbayevin əsərləri təşkil etmişdir. “Qızıl qartallı atlı qarda gəzir”, “Payız” adlı şeirləri ilk dəfə “Yay axşamı, Preirdəki gecə, qızıl buğda diyarı, qazax ədəbiyyatı dünyası” antologiyasına daxil edilmişdir. Vaşinqtonda Asiya mədəniyyəti proqramının direktoru Pol Teylor Abay Kunanbayev yaradıcılığının ümumbəşəri ideyalarının Amerika oxucusunda dərin təəssüratlar yaratdığını, böyük maraq və rəğbətə səbəb olduğunu qeyd etmişdir.

Abay Kunanbayev yaradıcılığı 2007-ci ildə Almaniya ədəbi mühitinə tənqidçi, tərcüməçi Leonard Koşutun şairin şeirlərini tərcümələri ilə daxil olmuşdur. Eyni zamanda Muxtar Auezovun Abay Kunanbayevə həsr etdiyi “Qazaxların Hötesi” kitabı da Leonard Koşut və digər alman ədəbiyyatşünası Herold Bergerin böyük dəstəyi ilə alman dilinə tərcümə edilmişdir. Tərcümələrin işıq üzü görməsindən düz əlli il öncə Auezovun “Abayın yolu” kitabı ilə Kunanbayev yaradıcılığına heyran olan Leonard Koşut Abayın 19-cu əsrdə qazax xalqının mədəni inkişafında oynadığı mühüm və əvəzsiz rolu görmüş və bu əsəri alman dilinə tərcümə etməyi məqsədinə çevirmişdir.

Şərq dünyasında Abay yaradıcılığını iki aspektdən dəyərləndirə bilərik: Abay Kunanbayevin Şərq mütəfəkkirlərindən öyrənməsi, bəhrələnməsi və onun əsərlərinin Şərq dünyasına daxil olması. Qazax və özbək xalqlarının ədəbi əlaqələri istiqamətində Abay Kunanbayevin böyük Nəvaidən öyrənməsi, qazax şairinin əsərlərinin özbək ədəbi mühitində əks-sədası və bu yöndə tədqiqatlar mühüm elmi- ədəbi, həmçinin tarixi məsələlərdir. Şərqin klassik ədəbiyyatının çoxəsrlik ənənələrini mükəmməl şəkildə mə-

nimsəmiş, hələ on üç yaşındaykən Nəvainin şeirləri ilə tanış olmuş, sonrakı illərdə Nəvai sənətini şagirdlərinə öyrətmiş və təbliğ etmiş Abayın ilk şeirlərində Nəvainin fəlsəfi baxışlarının izləri vardır. Abay Kunanbayev yaradıcılığı XX əsrin 20-ci illərində özbək ədəbi mühitinə daxil olmuşdur. "Şairin "Arzulara doğru" şeiri 1921-ci ildə Özbəkistanda qazax dilində nəşr olunan "Akjop" jurnalında yayımlanır. 1922-ci ildə isə "Şair", "Anlar içində" və digər şeirləri özbəklərin "İnqilab" (9) adlı jurnalında nəşr olunur. Elə həmin ildə Özbəkistanda Abay Kunanbayevin seçilmiş əsərlərindən ibarət toplu nəşr olunur. Özbək xalqı hələ Sovet dönəmində "şairin 130, 140, 150, 160-cı yubiley tədbirlərini təntənəli şəkildə qeyd etmişlər" (9). Əqsəd Muxtar, Mirtəmir, Sultan Əkbəri, Cüməniyaz Cabbarov kimi özbək şairlərinin tərcüməsində "Abay. Şeirlər və poemalar" adlı kitabı 1970-ci ildə Qafur Qulam adına "Bədii ədəbiyyat" nəşriyyatında nəşr olunur.

**Ədəbiyyat:**

1. Abay; Əsərləri, tərt. F.Dursunova; red. R. Əskər [et al.]. Bakı: Mütərcim, 2017. 252 s.

2. Arzumanlı.V.M. Nizami Gəncəvinin dünya şöhrəti, Bakı, Elm, 1997, s.114

3. Ağayeva F. Abay: şəxsiyyəti və ədəbi irsi / F.A.Ağayeva; red. P. İ.Xəlilov.- Bakı: Elm, 2010. 176 s.

4. Həşimova. T. Poeziya körpüsü (Azərbaycan ədəbiyyatı və Mərkəzi Asiya xalqları poeziyası), Qartal nəşriyyatı, 2004, 116 s.

5. Quliyev E. Abay Kunanbayev: həyatı və yaradıcılığı, 2019, http://www.xalqcebhesi.az/news/literature/36498.html

6. Musrepov Q. Təbrik, "Ədəbiyyat və incəsənət" qəzeti, 10 iyun 1964, s 5.

7. Tağısoy N, Azərbaycan-qazax ədəbi əlaqələri, Xalq Cəbhəsi. - 2017.- 7 sentyabr. - № 158. - S. 14.

8. Tokayev. Q.J "Abay və XXI əsrdə Qazaxıstan", "Respublika" qəzeti, 28 yanvar 2020-ci il.

***Rus dilində***

9. Абай и Навои: Осмысление наследия в XX веке, Мир науки, культуры и образования, № 2, 2019, УДК 81.091

10. Образ Искандера у Низами и Абайа, http://bibliotekar.kz/shamshijabanu-kanyshevna-satpaeva-vejani/obraz-iskandera-u-nizami-i-abaja.html

11. Учение Абайа «Толык адам будет внедрено в учебный процесс» http://tarmpu.kz/index.php?option=com_content&view=article&id=1841%3A2017-06-05-04-20-48&catid=34%3A2011-01-10-20-47-55&Itemid=1&lang=ruОФИЦИАЛЬНЫЙ ИНТЕРНЕТ-РЕСУРС ТАРАЗСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ

***İngilis dilində***

12. The Stories of the Great Steppe. The Anthology of Modern Kazakh Literature. Ed. by Dr. R. Abasov. San Diego, California: Cognella Academic Publishing, 2013.

Tarana Hashimova

**Founder of the modern Kazakh written literature – Abay Kunanbayev and world literature**

***Summary***

Abay Kunanbayev, the founder of the modern Kazakh written literature? Philosopher? Great public figure and educator? Is a great thinker who masterfully wrote the socio-political processes that took place in the life of the Kazakh people in the XIX century, reflecting the national spirit, historical identity, struggle and fight.

The article examines the theme, content and features of Abay Kunanbayev's work. At the same time, the integration of the works of the Kazakh writer into Azerbaijani, Uzbek and Western literature is discussed.